SƏNƏT



# Qardaşların yadigarı

**Borçalı həmişə sazlı-sözlü diyar olub. Qorqud ruhu yaşayır bu torpaqlarda. Xındı Məmməd, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev Dədə Qorqud ruhu ilə bu torpaqların səsi-sözü olublar, Borçalının sazını-sözünü yaşadanların avazı bu ruhdan yoğurulub.**

*Dədə Qorqudun göynəyən səsi,*
*Ulu babaların qəm şikəstəsi.*
*Telli durnaların həzin nəğməsi,*
*Bülbülün nəfəsi telli sazdadır.*

Aşıq Kamandarın dilindən sazın sehirli müşayiəti ilə səslənib bu misralar. O Aşıq Kamandarın ki, Borçalıda ustalara ehtiram, sayğısı da örnək olub. Saz çalanda havalara, oxuyanda mahnılara can verən Aşıq Kamandarın yaradıcılığında Borçalı böyük Türk dünyasının tarixi salnaməsinin böyük bir fəsli kimi yerini alıb, kimliyini həmişə qoruyacaq bir diyar kimi misralardan boylanıb.

*Aşıq, ilhama gəl, məclis oyansın,*
*Divani, təcnis de, həzindən oxu.*
*Ustad Ələsgərdən, Xəstə Qasımdan,*
*Dastanlarda olan dözümdən oxu.*

*De şair Nəbidən, Təhlə Novruzdan,*
*Şair Ağacandan, şair Knyazdan.*
*Şair Zəlimxandək çoşqun avazdan,*
*Dədəmiz Əmrahın sazınndan oxu.*

*Vurğunu ellərdən sor, an, unutma,*
*Osman Sarıvəllini bir an unutma,*
*Dilində əzbərdi Quran unutma,*
*Keşəli Osmanın özündən oxu.*

Aşıq Kamandar 50 illik coşqun aşıqlıq fəaliyyətində böyük bir irs yaradıb. Ruhən Aşıq Əmprahın sənət dünyasına yaxın və onun yaradıcılıqda davamçısı olub. Şeirlərindən də həmişə ustad Əmrahı xatırlayıb, ondan bəhs edib:

*Deməyin Kamandar göz yaşın silir,*
*Lələn qiymətini sərraflar bilir.*
*Mənim bu sənətə yazığım gəlir,*
*Sənətdə Əmrahsız qaldı bu dünya.*

Aşıq Kamandar böyük söz-sənət dəryasıdır. Onun barəsində saatlarla danışmaq, cildlərlə kitablar yazmaq olar. Bu dəfə bu böyük ustadın yaradıcılığına müraciət etməyimizin səbəbi onun layiqli davamçısı Mirzə Alı oğlu Məmmədovun hansı məsuliyyətli və şərəfli bir missiyanı daşıdığına müəyyən qədər aydınlıq gətirmək idi. Borçalının, bu sazlı-sözlü diyarın el sənətinin ağırlığını çiyinlərində bu gün daşıyan və hələ uzun illər daşıyacaq Aşıq Mirzə ustad Kamandarın tövsiyyəsi ilə saza, sözə daha yaxından bağlanır. Fitri istedadı, ədəb-ərkanı, ustadlara sayğısı diqqətdən yayınmayıb Aşıq Kamandarın, Bu gün ustad Kamandar cismən dünyadan köçsə də, ruhən Aşıq Mirzənin sazında, sözündə yaşayır. Ustad Əmrahın ruhu boylanır misralarından. Danışanda sözləri sanki ahənglə, nəzmlə dildən çıxır. O, Borçalıda məclislərin bəzəyidir.

Onu da deyək ki, Aşıq Mirzə 1954-cü ildə ustad Kamandarın kəndində, Kürüstü Kəpənəkçidə Alı kişinin ailəsində dünyaya göz açıb. Alı kişinin ailəsi aşıq sənətinin vurğunu və onu yaşadan onlarca ailədən biridir. Onun oğulları Mehmanın, Mərdanın, Söhrabın, Novruzun, Elmanın gözəl səsi olub. Novruz daha istedadlı olub. Mehman və Novruz Aşıq Əmrah və Aşıq Kamandarın sənət süzgəcindən keçə-keçə, məngənəsində bərkiyə-bərkiyə, ocağında yana-yana püxtələşiblər. Aşıq Mirzənin qardaşları Aşıq Mehman və Novruzun özlərinə məxsus gözəl və ecazkar ifaları, gözəl zəngulələri olub. İstedad və qabiliyyətləri, səhnə mədəniyyətləri və ədəb-ərkanları ilə tamaşaçılarının hörmətini qazanıblar.

Qardaşların saz-söz sənətinə qəlbən bağlılıqları və ona layiqincə yaşatmaları ailənin digər üzvlərinə də geniş yol açdı. Aşıq Mirzə də bu yolun davamçısı oldu. Alı kişinin oğulları sazı İlahi varlıq, sözü isə Allah kəlamı kimi qəbul edərək Əmrah-Kamandar aşıq məktəbini davam etdiriblər.

Bu ailənin aşıq sənətinə böyük maraq göstərən üzvlərindən biri də Mirzədir. O, orta məktəbdə oxuyanda Hafiz Ömərovdan şirmayi dilli qarmonun sirlərini öyrənib. Ağsaqqalların və Mirzənin böyük qardaşlarının köməyi, Novruz Bayramovun rəhbərliyi ilə Kürüstü Kəpənəkçidə "Kür" ansamblı yarandıqda Mirzə onun ilk üzvlərindən biri olub. Ansamblda Elşad Əfəndiyev simli (saz və gitara) alətlərdə, Mirzə qarmonda. Ələddin Qasimov nağarada ifa ediblər. Mirzə Alıoğlu aşıq sənətinin sirlərini məhz böyük qardaşları Mehman və Novruzdan, bir də eloğulları Novruz Bayramovdan, və Elşad Əfəndiyevdən öyrəndiyini etiraf edir. Aşıq Mirzə ali təhsil almaq istəyi olsça da, ailənin böyük olması bu istəyini yerinə yetirməsini əngəlləyib, oxuya bilməyib. Ailədə 8 qardaş, bir bacı olublar. Rustavidə metallurgiya zavodunda işləyib, Alget üzümçülük sovxozundakı mədəniyyət evində çalışıb. Musiqiyə həvəsi onu 1985-ci ildə Tiflisdəki musiqi xoreoqrafiya məktəbinə aparıb. 1989-cu ildə bu məktəbi bitirib, Kəpənəkçidə mədəniyyət evinə müdir təyin olunub.



Mirzəni də Novruz sazla dostlaşdırıb, ona saz tellərində sehirli mahnılar ifa etməyi öyrədib. Ancaq sonra Mirzə qardaşlarını itirib. Uzun müddət əlinə heç bir musiqi aləti almayıb. Ancaq Aşıq Kamandarın, ustad Gülabı Vəliyevin məsləhətlərindən sonar yenə saza qayıdıb. Aşıq Kamandarın etimadını el-obada doğruldub.

Yuxarıda dediyimiz kimi, o, ustadlarını da saz-sözlə yaşatmaqdadır. Aşıq Mirzə gözəl avazı, məlahətli səsi, sənətkar barmaqları ilə Borçalı aşıq sənətində tutduğu özünəməxsus yerlə aşıqsevərlərin sevimlisinə çevrilib.Onun "Döşəmə Koroğlu"-nu xüsusi zövq şövqləifası dinləyicildə vətənə məhəbbət, yurda bağlılıq əhvali-ruhiyyəsi oyadır.Onu sinəsi sazsız, dili sözsüz təsəvvür etmək mümkün deyil.Saz öz müqəddəsliyi, söz öz kəsərliyi ilə Aşıq Mirzənin ruhuna, qan yaddaşına elə hopub ki, onlarsız həyat dünyasını təsəvvür etmir.

Aşıq Mirzə özünün istedadı, qabiliyyəti, və mədəniyyətilə tamaşaçı rəğbəti qazanıb.Onun şəxsiyyəti, mənliyi, ləyaqəti, xoş xasiyyəti, sadəliyi və xeyirxahlığı"aşıq sənəti" ilə eyni səsləşir.Dostları da Aşıq Mirzənin istedadını həmişə yüksək qiymətləndirib, bu el sənətkarını, böyük insanı dəstəkləyiblər. Dostu Hümbət Mahmudoğlu da bu qəbildəndir.

*Ustadlara hörmət elə,*
*Daim yada sal, ay Mirzə.*
*Al sinənə telli sazı,*
*Bir Urfanı çal, ay Mirzə.*

Dostu İsmayıl isə Borçalıda aşıq sənətinin yaşamasında onun oynadığı roldan. bu şərəfli missiyanı daşımasından bəhs edir:

*Hər yerdə hər zaman gülsün üzünə,*
*Səxavətlə qoy Allahın, a Mirzə!*
*Sevə-sevə kəmərini qurşasın,*
*Kərəm əli, ümidgahın, a Mirzə.*

*Saz-sözündə abu-kövsər qanmışam.*
*Pərvanədək tək atəşinlə yanmışam.*
*Bu sənətdə təkcə səni sanmışam,*
*Davamçısı Xan Əmrahın, a Mirzə.*

*İsmayıl vurğunudu haqqa binadan,*
*Aşıq çıxmaz hər saz tutan gədadan.*
*Bəllidir qiymətin eldən, obadan,*
*Tanrın olsun qoy pənahın, a Mirzə.*

El məclisində Aşıq Mirzənin Kamandar tərzində ustad Əmrahdan oxuduğu sözlərlə bitiririk yazdıqlarımızı. Bunun özü də Aşıq Kamandarın sazında ustadların sözünü yaşadan Aşıq Mirzə ilə bağlı seçimdə yanılmadığını bir daha göstərir. Aşıq Mirzə məclislərdə canlı ifasıyla bu ustadları öz misraları ilə yenidən canlandırır.

***O mənim elimdir. Mənim Vətənim,***
***Adı çəkiləndə əsir bədənim.***
***Hər gələn mehmana hörmət edənim,***
***İnsanların xası Kürüstündədir.***

***Borçalı bulağı, Kürün qırağı,***
***Bütün mahallarda bəlli sorağı.***
***Marallar ovçusu, laçın yaylağı,***
***Elin xoş sədası Kürüstündədir.***

***Aşıq, nə deyirəm, başa düş məni,***
***Qəriblik sözünə olmaram qəni.***
***Bu Aşıq Əmrahın ana Vətəni,***
***Anamın laylası Kürüstündədir.***

Hər ustad sənətkarın izinə iz qoyan, yolunu davam etdirən, əqidə və amalını yaşadan davamçıları olur. Aşıq Mirzənin, eləcə də qardaşları Aşıq Mehman və Novruzun yolunu uğurla davam etdirən nəslin zəhmətkeş, layiqli övladları var. Novruzun oğulları Cövdət, Səxavət, Söhrabın oğlu Cəmil gözəl saz ifaçıları olmaqla yanaşı gözəl səsləri var. Alı isə gözəl nağara ifaçısıdır, həm də oxumağı var. Nəsilin digər övladları da aşıq sənətinə böyük maraq göstərir.